## Hardasan

Hardasan, ürəyim, hardasan, qəlbim
İçimdə alışıb alov, hardasan?
Oyan sönən ruhum, yanına gəldim,
Məni ruhsuz qoyan şeytan, hardasan?

Bu gün cavanlıqdan ləzzət alıram
Bəzən soruşuram nə qədər olar?
Düşmənə dost deyib mən dolanıram,
Bu həyatdan mənə de nələr qalar?

Mən bu gün kasıbam, sabah varlıyam,
Artıq pulu görüb qudurmuşam mən.
Unutdum onu ki, azərbaycanlıyam,
De mənə Allahım, kim olmuşam mən?!

17.10.2015

## Zaman bizi hara aparır

Bugün varlığıma sevinən insan,
Sabah yoxluğumda deyib güləcək.
Yanımda sakitcə oturub susan
Bilmirəm dalımca nələr deyəcək.

Bir vaxt dost çağırıb güvənən dostum,
Bir gun məndən yaxşısını görəcək.
Artıq yazmıram mən, qələmi qoydum,
Bəlkə xəyalıma bir dost gələcək.

Zaman da çay kimi, axır ,dayanmır,
Gənclik əldən gedir, saçlar ağarır.
İnsan varlığına artıq inanmır,
Söylə, zaman bizi hara aparır?

18.12.2015

**Скажи**

Скажи слеза, зачем ты льешься?

Зачем страдаешь день и ночь?

Как-будто больше не проснешься

И все мечты уходят прочь.

Во сне я счастлив, в жизни нет.

Всю жизнь мою метель накрыла.

Включись в душе, ты - солнца свет

Но солнце мне глаза закрыло.

Смотрю на зеркало часами,

Не узнаю я там себя.

Приходит боль ко мне ночами

Ну что, судьба несчастлив я!

17.03.2016

**Ucalt şanlı bayrağı**

Bezmişəm mən inanmaqdan,

Bu dünyanın yalanına.

Yoruldum səssiz baxmaqdan,

Xalqımın yazıq halına.

Çagırır torpağın səsi,

Qarabağ çağırır bizi.

Hər şəhidin son nəfəsi

Qoy ucaltsın səsimizi.

Əsgər, azad et yurdumu,

Düşmənin zalım ayağı,

Qoyma dəysin torpağıma.

Get ucalt şanlı bayrağı!

21.03.2016

**И вот душа уже не та**

И вот душа уже не та
Любовь, меня ты не согреешь
Ушла с любовью ты мечта
Вернуть мечту ты не сумеешь.

Уже который день подряд
Совсем один в мечтах летаю
Хочу забыть твой милый взгляд
Весь день  себя я проклинаю.

Я так хочу тебя обнять
Прошу ты будь сомною рядом
И тебя к себе прижать
Меня волнуешь своим взглядом .

Хочу тишину, хочу покой
Взять уснуть в плечах твоих
Я сново слышу голос твой
Ведь этот мир для нас двоих.

15.05.2016

Меня взяла любовь твоя

Не отпуская, крепко держит

Оставь меня печаль моя

Мой тихий плачь, никто не слышит.

Это любовь я убедился

Но безответная любовь

Я тишиной уже смрился

В душе остановилась кровь.

Как о любви мне не писать

Ведь  прикосновение рук твоих

Увы мне больше  не видать

Ты не увидишь слез моих.

Я не могу  сейчас молчать

Ведь сердце бьётся при тебе

Но так же не хочу я врать

Ты счастья не найдёшь во мне.

12.04.2016

## Gəl

Gəl unudaq olanları,

Yazda açaq çiçək kimi.

Açaq sirli dünyaları,

Uçaq bir kəpənək kimi.

Gəl bürünək biz xəyala,

Qayıtsın usaqlığımız.

Ümidim bircə Allaha

Ana desin dodağımız.

Gəl oxuyaq nəğmələri

O nəğmə ki, həyat verir.

Uşaqlığın xoş səsləri

O səslər ki artıq gedir.

Əl çək məndən ey uşaqlıq!

Aparma məni xəyallarıma

Axı sənlə biz ayrıldıq

Qaytar məni həyatıma!

30.04.2016

Dünya olub artıq yaman mənasız,
Aləm mənim, zülmət  mənim, taxt mənim.
Bu dünya ki, artıq qalıb imansız,
Sevgi mənim, dostluq mənim, pul mənim.

Övlad gördüm, qalıb ata anasız,
Gözüm yaşla doldu bu gözəl gündə.
Dedim həyat, oldun yaman amansız
Görə bilmirəm özümü güzgüdə.

Soyuq qış keçdi, isti yay da keçdi
Həyat qəmlə doldu, kədərlə doldu.
Bir insan ömrü də bax, belə keçdi,
Ömür uzun yoldu, vəfasız yoldu .

16.06.2016

## Bir qocanın hekayəsi

Bir gün durub mən də baxdım keçmişə,
Xəyal etdim, guya cavan oğlanam.
Gördüm yaşda çatıb artıq yetmişə
Dedim Tanrı artıq qoca aslanam.

Yığılıb başıma nəvəm, nəticəm,
Baba deyirlər şirin səsləriylə.
Qoy dalınca gəlsin mənim kötükcəm
Yatsın şirinlər ana nəğməsiylə.

İllər ötdükcə ağarır başda  saç,
Cavanlıq tərk edib artıq qəlbimi.
Bir vaxt rahat-rahat çıxdığım dağlar
Duymayacaq bir də mənim səsimi!

14.08.2016

## Qarabağ

Ey xalqımın günahsız insanları,
Arzular tükənmir, ömür tükənir.
Biz sanki həyatın ac yalanları
Azadlığın səsi qulağa gəlir .

Şəhərdə millətin qəmi, kədəri
Dalğalan, ey bayraq, səslən, Xəzərim.
Ey şanlı xalqımın igid əsgəri,
Vətəndən yazmağa bitməz sözlərim .

Hardasan, Laçınım, Şuşam, hardasan?
Sən düşmən əlində qaldın, Qarabağ.
Ağ atlı şəhzadəm, harda qalmısan?!
Düşmən alovunda yandın, Qarabağ!

19.10.2016

Yaş ki gəlir gözlərindən

Yıxıb dağıdır qəlbimi.

Yoxdu şirin sözlərindən

Tənha qoydun bu gün məni.

Qoy  tutum mən əllərini,

Saçlarına sığal çəkim.

Seyr edim gözəlliyini

Şer yazıb şəklini çəkim.

Qoy üzünə günəş düşsün,

Parıldasın o saçların.

Kədərin ömürlük sönsün,

Və çin olsun arzuların!

01.11.2016

## Yollar

Bəzən bu yollar səni yada salır,
Soyuq qış vaxtında durduğum yollar
Yollar ki ömrümü əlimnən alır
Bu yollarda ancaq ürəklər ağlar.

Yollar addımına həsrət qalıblar,
Artıq o yollarda açmır çiçəklər
İnsanlar tək-tənha qalıb donublar
Tək onlar donmayıb, donub ürəklər.

Nolar, bu yollardan aparın məni
Ağarıb saçlarım, gőrműr gözlərim
Yoxsan, amma mən ki, duyuram səni,
Sən mənim sevincim, mənim kədərim!

13.11.2016

Нам всем так надоело жить
Мы думаем, как найти покой ?
Как эту жизнь в тишине прожить
Но жаль, что у нас в душе застой.

Мы боимся чувств, боимся жизни
Страдаем, и днями слезы льем
Мы не верны  своей отчизне
Мы ведь только ждём, когда умрем!

06.12.2016.

O şirin gülüşünçün,
O gözəl baxışınçün,
Sənsiz qalıb sıxıldım,
Bugün yenə darıxdım.

Oldun başımın tacı
Gedişin verdi acı
Sanki artıq ayıldım
Bugün yenə darıxdım

Bacarmadıq sevməyi,
Bir yerdə sevinməyiş
Tənha qalıb ağladım,
Sənsiz yenə darıxdım.

Artıq bitdi sevgimiz,
Ayrı insanlarıq biz.
Sevgindən zərbə aldım,
Sənsiz yenə darıxdım!

10.12.2016

Qatılma qəmimə, dərdimə mənim,
Yatmışam yuxumda, şirin yuxumda.
Yoxsan sən yanımda, kimə səslənim?
O şirin gülüşün hər vaxt yadımda .

Nurlu baxışıncün darıxmışam mən,
Qaytar sən o eşqi, qaytar günləri.
Sanki sən deyildin mənimçün gülən,
Bir gündə itirdik gözəl illəri.

Mən artıq yazmıram, şeir demirəm,
Sənsən bu dünyada yeganə təbim.
Qələmi sakitcə qoyub gedirəm,
Sənsiz bitib artıq mənim sözlərim!

14.12.2016

Biz insanlar dəyişmişik,

Arzularla yaşayırıq.

Səhv yolu da düz bilmişik,

Bütün günü ağlayırıq.

Dostumuz olubdur silah,

Unutmuşuq kitab nədi.

Hər kəsdə tapırıq günah,

İndi belə zamanədi.

Söz deməyi bacarmırıq,

Biz yumruqla söz deyirik.

Doğru sözə inanmırıq,

Tək yalana güvənirik!

19.12.2016

Mən bir çiçək yetişdirdim,
Amma ona baxammadım.

Səhər dənizi seyr etdim,
Lakin heç zövq alammadım.

Gecə aya çıx get dedim,
Onsuz qalıb yatammadım.

Mən aləmə diqtə etdim,
Bir özümlə bacarmadım.

Qaranlıqda boğuluram,
Üzmə məni, əsən külək.

Həyat, səndən soyuyuram,
Donubdur, döyünmür ürək.

Tənhalıqdan yoruluram,
Tanrı, sən ol mənə kömək.

Həyatdan azad oluram
Ruhum deyir vaxtdı, gedək.

22.12.2016.

**Yeni il gəlir**

Deyirlər yeni il gəlir
Xoşbəxt edəcək bizləri
Ana şəhidə səslənir
Torpağa dəyir dizləri.

Küçələrdə şən yolkalar,
Şəhərim bayram içində.
Amma sərhəddəki dağlar,
Müharibənin dərdində.

Qaytar o gedən canları,
Şəhidi, neftçini qaytar.
Dayandır axan qanları,
Qoy geri dönsün xoş çağlar!

30.12.2016.

Ürək parçalanıb, açılmır gözlər,
Bəs niyə tək qoydu həyat bizləri?
Dillər də olubdur sanki bir zəhər,
Unudub bu dillər şirin sözləri.

İnsanlar bacarmır gülümsəməyi
Bizimki savaşdı, müharibədi.
Məcnun da unudub Leyli sevməyi,
Sevgi baş qatmağa bir bəhanədi.

De görüm, ay insan, hara gedirsən?
Dünya da  boğulur tüstü içində.
Qaranlıq aləmi necə görürsən?
Küçədə körpələr həyat dərdində.

.

13.01.2016.

**Sadəcə yatmaq**

Dincəl ki, həyatın vurmasın səni.
Rahat olsun səhər gözləri açmaq.
Sus ki eşidəsən qəlbin səsini,
Ay, nə gözəl hissdir sadəcə yatmaq.

Yuxu aldı məni, apardı burdan,
Şərait yaratdı xoşbəxt olmağa.
Dedi dincəl artıq çətin həyatdan,
Göz yaşı düşərkən dəydi dodağa.

Yuxu, boğma məni, qoy nəfəs alım,
Onsuz da bu həyat incidir bizi.
Sakitcə yatmaqdı mənim xəyalım,
Yuxuya danışaq dərdlərimizi.

18.01.2017.

Zaman keçir, biz hələ də nağıllara inanırıq,
Həyatı da dərd edirik, guya nəsə bacarırıq,
Bu günü hədər verib sabaha iş saxlayırıq,
Sonra da birdən oyanıb özümüzü danlayırıq.

Biz hamıya ağıl verib, özümüzü unuduruq,
Dogru-yalan bir söz deyib, güclə ayaqda dururuq,
Şeytana biz daş atırıq, amma ona qoşuluruq,
Sonra da birdən oyanıb sakitcə peşman oluruq.

31.01.2017.

Играют дети под окном

И бросаются снежками

А я смотрю на тот альбом

Где детьми мы были сами.

Ветер тихий нежно дует

Птицы в небесах летают

Мать своё дитя целует

Это счастьем называют.

Дед сидит один, тоскует

Ведь дома нету никого

Старика одно волнует

Что навестит ли дочь его ?!

.

13.02.2017.

Bəlkə də yalanıq, həyat yalandı?

Bəlkə biz hələ də yatıb qalmışıq.

Bir danış keçmişdən bizə nə qaldı,

Həyatı dərd edib, biz qocalmışıq.

Qoymur xatirələr yaşayaq rahat,

Zaman da aparır həyatdan bizi.

Ölüm yaxınlaşır, dayanır saat,

Unutma, ey dünya, sözlərimizi.

Saxta gülüşlərə çox inanma sən,

Vaxtilə onlara çox inanmışıq.

Bu gözəl gözlərə heç aldanma sən,

Biz artıq aldanıb peşman qalmışıq.

Fariz Mehri.

18.01.2017.

## Bir sərxoşun şeri

Mən kəfənəm, mən məzaram,
İçki içib şellənərəm.
Bir sətir şeir yazaram,
İçməyə davam edərəm.

Mən alovam, mən ocağam,
Arzulara yan deyərəm.
Mən danışan bir dodağam,
Yalanı doğru edərəm.

Mən şaxtayam, mən günəşəm,
Bəzən səni qızdıraram.
İşdi, birdən əsəbləşsəm,
Ürəyini donduraram.

Mən həm dostam, həm düşmənəm,
Lazım gəlsə rol oynaram.
Birdən görsəm sərf eləmir
Yanında bir toz olaram!

24.02.2017

## Əlvida

Əlvida, ey günəş, əlvida, yağış,
Bu son məktubumdu yazıram sənə.
Son dəfə dərdini sən mənə danış,
Bəlkə çarə tapdım sənin dərdinə.

İsitmir əllərin əvvəlki kimi
Üzünə baxdıqca zəifləyirəm.
Bəlkə sən duyursan mənim qəlbimi?
De görüm, mən niyə belə dərdliyəm?!

Sən məni saxlama, gedirəm artıq
Gedirəm öyrəşim mən sənsizliyə.
Biz şirin yuxuya bir zəhər qatdıq,
Nolar, sən üzülmə  gedirəm deyə.

02.03.2017.

## Üzülmə

Üzülmə, üzülmək yaraşmaz sənə,
Ağlama, göz yaşın axmasın bir də.
Gülümsə, gözlərin parlasın yenə,
O göz dərman olsun hər böyük dərdə.

Səsin hər gün girsin mənim yuxuma,
Bu yanan qəlbimə rahatlıq versin.
Sənlə keçən günlər düşsün yadıma,
Ürəyim əbədi döyünsün, sevsin.

Çəməndə çiçəkdən gəlsin xoş ətrin,
O şirin ətrinlə mən ömür sürüm.
Səmada ulduzlar rəsmini çəksin
Hər gecə göylərdə rəsmini görüm.

Fariz Mehri.

12.03.2017.

**Güzgü.**

Güzgü, sən mənim düşmənim.
Səndən mən yaman qorxuram.
Donub buz olub əllərim,
Baxdıqca əsəb oluram .

Qayıtsın ötən illərim,
Qoy mən yenə cavan olum.
Qayıtsın mənim gur səsim,
Titrəməsin əlim, qolum.

Ağarmış gördüm saçımı,
Gözlərimi kor elədin.
Apardın xoş anlarımı
Dərdimə də dərd ələdin!

Fariz Mehri.
25.03.2017.

## Öyrət mənə

Gəl öyrət sən mənə xoşbəxt olmağı,
Öyrət ki, yalandan deyib gülməyim.
İçimdə kədəri, qəmi boğmağı,
Yalandan yaxşıyam, qoy mən deməyim.

İstəməm tərk etsin məni vicdanım
Həyatım zülmətlə, əzabla keçsin.
Qoy xoş duyğularla keçsin hər anım,
Gözlərim hər səhər günəş seyr etsin.

İnsanlıq ruhumu atıb getməsin
Uymayım bir daha şeytan səsinə.
Qoy məndən heç bir kəs acı görməsin,
Xoşbəxtlik bəxş edim insan qəlbinə!

31.03.2017.

Ölümdən qorxma sən, mən də qorxmuram,

Onsuz da eynidi hər kəsə məzar.

Yox , mən bu dünyada heç darıxmıram

Ürəyim sussa da qələmim yazar.

İndi insanlar az , adamlar çoxdur,

Maskalar taxmaqdan üz olub yara.

Çoxdur sevgililər, sevənlər yoxdur,

Onsuz da yolumuz gedir məzara.

Həyatı qanmadıq, biz oyun bildik

Unutduq hər şeyin vardır cəzası.

Yolu vicdanla yox, şeytanla getdik,

Getdikcə həyatın itir mənası.

Fariz Mehri.

03.04.2017

**Ana dərdi**

Övladı əsgər gedən

Ananı dərd apardı.

Allaha dua edib

Bütün gecə ağladı.

Oğlum salamat dönsün,

Həm əsgər yoldaşları.

Düşmənin odu sönsün

Axmasın göz yaşları.

Otaqdan qoxun gəlir

Yuxuma sən gəlirsən

Əllərim də titrəyir

Oğlum, əsgər getmisən!

Sayır ana günləri

Ürək qorxu içində

Kor olubdu gözləri

Ana övlad dərdindən!

Сказала все наладится

Мама дочке улыбнулась

Поверь ты все уладится

И в окошко оглянулась.

Смотри-ка как прекрасна жизнь

Как цветы рассвет встречают

Как падает деревья тень

Где о боли забывают.

Главное забудь о боли

Ведь жизнь дана для счастья нам

И пусть будет сила воли

Улыбкой отвечай врагам !

29.04.2017.

## Dərdlər içində

Gecə, dərd qatma sən dərdimə mənim,
Tənhalıq meyindən boğuldum axı.
İnan, danışmağa yüzlərlə dərdim,
Mən dərdlər içində yox oldum axı.

Sakit izləyirəm yağan yağışı,
Göz yaşı yağışla birgə tökülür.
Çöldə donan itin yazıq baxışı
Bir kimsəsiz uşaq acından ölür.

Kimisi kef edir, kimi dərd çəkir,
Birini uşaqlar evdə gözləyir.
Biri dərd əlacın tək siqaretdə,
O biri şəfanı duada görür.

Dərd etmə, ey insan, ömür beş gündü.
Özümə təsəlli verməkdən bezdim.
Əllərim buz oldu, qəlbim də söndü,
İşıqı söndürüb yuxuya getdim.

12.05.2017.

## Qəlbimdəki qış

Tənhalıq, qapıma qonaq gəlmisən.
Kədərli dünyama yoldaş olmusan.
Tək sən bu dünyada məni sevmisən,
Bu gün yenə məni yada salmısan.

De, niyə qoymursan deyib gülməyə?
Günlərlə alırsan gülüşü məndən.
Artıq gücüm yoxdur sənə dözməyə
Çıx get həyatımdan, bezmişəm səndən.

Gecələr yuxumu zəhər etmə sən,
Qəlbimdəki qışı dəyiş, yaz elə
Günahsız ruhumu gəl incitmə sən
Şairin kefini yenə saz elə!

23.05.2017

**Əbədi sevgi .**

Mən ki gözlərinə aldandım sənin,
Sevdim və qəhr oldum mən bu sevgidən.
Şirin gülüşünə bağlandım sənin,
Sən isə tək qoydun məni qəfildən.

Bəs niyə deyirdin sevgim əbədi,
İki ilmi çəkdi əbədi sevgi?
Son dəfə əllərin əlimə dəydi,
Həyatda ən acı bir dərddi sevgi.

İllərlə gözlədim ümüdlə səni,
Lakin sən dönmədin, çıxmadı səsin.
Cəhənnəm odunda yandırdın məni
Yatım, qoy yuxuma sevgilim gəlsin !

31.05.2017.

## Əsiriyəm

Səhərlər oyadır xoş səsin məni,
O xoş rayihənlə nəfəs alıram.
Allahım nə gözəl bəzəyib səni.
O gözlər içində batıb qalıram,
Qara gözlərinin əsiriyəm mən!

Əllərin əlimə toxunanda mən
Dünyani fəth edib dağlar aşaram.
Həyatım da olur yaşıl bir çəmən
Gülüşünü çəkən rəssam olaram.
Nazlı baxışının əsiriyəm mən!

Qaranlıq gecənin sərin küləyi
Ey insan ruhuna xoşbəxtlik verən.
Ömrümün ən gözəl, zərif çiçəyi
Dürüstlük, sakitlik, tənhalıq sevən
Sənsiz günlərimin əsiriyəm mən!

07.06.2017.

## Xoşbəxtlik dediyin səni sevməkdi

Səhər günəşim ol, gecələr ayım
Səssizcə yuxuma qonaq gəl, gülüm.
Gəl ki gözlərimi rahat bağlayım,
Ən xoşbəxt anımı səninlə bölüm.

Danışım mən sənə xoşbəxtlik nədi,
Sən də bax üzümə, diqqətlə dinlə.
Xoşbəxtlik dediyin səni sevməkdi,
Əgər küsmüsənsə, incitmə belə .

Ürəyim sevməyi səndən öyrəndi,
De görüm o necə başqasın sevsin?!
Desinlər sevgidir, keçib gedəndi
Ondansa qoy ruhum bu gün can versin!

Fariz Mehri

09.06.2017

Mən çoxdan ölmüşəm, yaşamıram ki,
Qaranlıq gecənin soyuq qışıyam.
Yox, mən tənhalıqdan heç qorxmuram ki,
Bu fani dünyanın bir sərxoşuyam.

Ürək kül içində yox olub gedib,
Nə əcəb mən özüm hələ qalmışam?
Və özüm özümə bu zülmü edib
Öz kinim içində çoxdan batmışam.

Dayandım, gözlədim bəxt qatarını
Dedim məsum ruhum geri dönəcək
Şeytan qoydu qatara öz ayağını
Dedi dalınca da canın gedəcək !

15.06.2017

Ночь, зима сидишь ты у окна одна
И молодость свою ты вспоминаешь
Грустишь часами, и вроде так бледна
Всю красоту ты грустью потеряешь.

Не грусти, ведь кричат тебе деревья
Которые всю жизнь ты поливала
Годами ты не видела веселья
Молодость этим стенам ты отдала.

Прошли года, и ты лежишь больная
Ты чувствуешь что смерть твоя в пути
Красивые глаза свои ты закрывая
Умираешь, чтобы счастье там найти!

02.07.2017.

## Zəhra

*(Ermənilərin qətlə yetirdiyi balaca Zəhraya)*

De nə idi günahın?
Niyə tək qoyub getdin ?
Sən mələyi Allahın,
Bir şəhid olub getdin!

Bu gün hamı ağlayır
Nəşini görən insan.
İçində yas saxlayır
Ağlama, Zəhram, dayan!

Düşmən, kökün kəsilsin,
Öldürdün Zəhramızı.
Allah bəlanı versin,
Eşitsin duamızı !

04.07.2017.

**Dinlə**

Dinlə, gör ürəyin nə deyir sənə
Getmək vaxtıdırmı, ya qalmalısan?
Bəzən getmə demək lazım gedənə,
Dünənki gününü unutmalısan.

Toxun, heç döyüntü yoxdur ürəkdə,
Gecələr yuxunda nəbzin dayanır.
Arzu etməyinə yox bir dilək də
Sənin də kitabın belə bağlanır.

Qaranlıq içində şam yandır, insan,
Yanan ürəyinə tök sərin sular.
Asandı yaşamaq kinini boğsan,
Bu zalım dünyada yaxşılıq qalar!

21.07.2017

## İstəmirəm

Əgər sənlə gün gördümsə,

Səninlə də çıxım gedim.

Əgər mən artıq öldümsə,

Qoy qəbirdə dua edim.

Aləmdə tək qalmağımı istəməm!

Bu gün şaham, sabah kölə.

Həm mələyəm, həm şeytanam,

Ey ruh, di gəl mənə söylə,

Mən doğruyam, ya yalanam?

Yalanlarda batmağımı istəməm!

Axma, dayan, ey göz yaşı,

Bugünkü gülmək vaxtıdır.

Otur mənimlə yanaşı,

Səssizliyin çox acıdır.

Danış sənin susmağını istəməm!

20.08.2017

## Rəsminə baxdım

Bu gün mən rəsminə bir daha baxdım,
Bu nə gözdü belə, bu nə baxışdı.
O gözəl səsinçün necə darıxdım,
Sənsiz keçən günlər soyuq bir qışdı.

Gözlərin cənnətdir, mənim cənnətim,
Onların içində sanki batıram.
Səndən mən sevgimi necə gizlədim?
Mən sənsiz günlərdə eşqdən yanıram.

Gülüşün ruhuma həyat bəxş edir,
Üzün gülsün deyə bu şeiri yazdım.
De mənə, sevgilim, bu sevgi nədir?
Madam yuxudursa, bir ömür yatım!

24.08.2017

Bəzən ürəyin ağlar,

Deməyə sözün olmaz.

Qarşında olsa dağlar,

Cıxmağa nəfəs qalmaz.

Bəzən külək olarsan,

Ora-bura əsərsən.

Axırda tənha qalıb

Sən yarına dönərsən.

Gündüzlər güclü olub,

Gecələr tək ağlarsan.

Həyatından yorulub

Çarəsizcə susarsan .

03.09.2017.

**Печаль влюбленного.**

Ночь, ты так неожиданно настала
Ведь всю печаль свою я почти забыл
Зачем ты пришла и уходить не стала
Таким грустным ночью в жизни я не был.
Ах в сердце боль меня не отпускает
Воспоминания не дают дышать
Твой голос в памяти, как музыка играет
Зачем? Скажи мне, ты выбрала молчать?
Прошли года, а ночью боль приходит
Аромат волос твоих комнату берёт
Позвони ты ей, сердце меня просит
Однако знаю я, забыла, не возьмёт.

24.09.2017.

**İnsan kədəri.**

Körpənin gözləri ana axtarır.

Ana laylasıyla yatmaq istəyir.

Anasız qalammır, körpə ağlayır,

Ananın əlindən tutmaq istəyir.

Qoca tək əyləşib va xatırlayır,

Həyat yoldaşının şəklini qoyub

Yemək yeyə-yeyə gözü yaşarır,

Qoca ağlamaqdan artıq kor olub.

Gözlər hara baxır, kimi axtarır?

Hərənin qəlbində kədəri vardı.

Adam var sağıykən ölüm yalvarır,

Həyatda ən çətin xoşbəxt olmaqdı.

21.10.2017.

**Ушедшая любовь**

Сегодня ночью ты пришла

И хотела попрощаться

Ты вроде счастлива была

Но лгала "хочу остаться ".

Не я не тот ,не ты не та

Жаль , друг друга потеряли

Хотя у нас была мечта

Но удержать мы не смогли.

Вот последний глоток вина

Пью,тебя я вспоминаю

Прости,ведь все моя вина

Тебя другому отдаю.

19.03.2017.

## Ana

Nə tez göy gözlərin yumuldu sənin,
Doyunca mən ana deyə bilmədim.
Bir anda kəsildi səsin, səmirin,
Səsini illərdi duymaq istədim.

Ata yas saxladı hər gün, hər gecə.
Kədərə büründü sənsiz otaqlar.
Xoşbəxt ol deyirlər, de görüm necə?
Baş əydi yasın da ağaclar, dağlar.

Mən sənsiz qalmağa alışmamışam,
Artıq sən daha çox düşürsən yada
Sənin yoxluğuna inanmamışam
Bircə mələyimsən fani dünyada.

Qızıma qoyacam sənin adını,
Sənin qoxunu mən alacam ondan.
Unutmaz bir övlad doğma ananı,
Məndə unutmadım körpə anımdan!

26.01.2017

Hara getdi xəyallarım?

Dünyam mənim qəmlə doldu

Hanı o saf arzularım?

Tale də mənə düşmən oldu .

Uçur göydə mələklərim,

Şeytan olub mənə yoldaş.

Yaşla doldu gözüm mənim,

Hanı o dost, hanı sirdaş?

Bezdim o boş sözlərindən,

İnanmıram dostum sənə.

Yalan axır  gözlərindən

Səndə atdın güllə mənə!

13.07.2017